## Əməkdaşlıq fəaliyyətləri

- AQTA ilə Koreyanın müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar – Kodeks Alimentarius Komissiyası, “Bitki Mühafizəsi haqqında” Beynəlxalq Konvensiya və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq həyata keçirilir, məlumat mübadiləsi aparılır.
- AQTA və APQA arasında hal-hazırda bitki sağlamlığı sahəsində əməkdaşlıq davam etdirilir. Azərbaycandan Koreyaya narın ixracı ilə bağlı Koreya tərəfinin idxal tələblərinə uyğun risk qiymətləndirilməsi Agentlik tərəfindən hazırlanaraq Koreyanın Heyvan və Bitki Karantini Agentliyinə təqdim olunmuşdur.
- AQTA-nın əməkdaşları Cənubi Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən təşkil edilən təlimlərdə iştirak edirlər. Bu təlimlər çərçivəsində Azərbaycan mütəxəssisləri Koreyada heyvandarlıq və kənd təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət, həmçinin laboratoriya işlərində istifadə olunan müasir üsulları öyrənirlər.